DOI: https://doi.org/10.36719/2663-4619/118/92-95

**Pərvin Məmmədova**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-0487-4987
parvinmamedova@icloud.com

# Sosial turizmin anlayışı

### Xülasə

Qloballaşma bütün hüquq münasibətlərinə təsir etdiyi kimi turizm hüquq münasibətlərinə də güclü təsiri ilə seçilir. Xüsusilə səyahət etmək üçün nəqliyyat vasitələrinin daha əlçatan olması və seçim çoxluğu turizm hüquq münasibətlərinin əhəmiyyətini artırmışdır. Ümumilikdə bu hissədə sosial turizmə anlayış verilməzdən öncə turizmin əhatə dairəsinin müəyyənləşdirilməsi olduqca vacibdir. Sosial turizmin əsas xüsusiyyətlərini müəyyənləşdirmək onun turizmin digər növlərindən fərqləndirilməsi hüquqi istiqamətdən olduqca vacibdir. Bununla sosial turizmin cəmiyyətdəki və sosial münasibətlərdəki təsirlərinin müəyyənləşdirilməsi, hüquqi, sosial və iqtisadi baxımdan nəticələrin aşkarlanması məqsədəmüvafiq olardı. Sosial turizm təşəbbüslərinin sosial inteqrasiyada töhfəsi böyükdür, bu konsepsiya əsas insan hüquq və azadlıqlarının təminatı və iqtisadi inkişafın təmin edilməsi baxımından da öz zəruri əhəmiyyəti ilə seçilir. Məqalədə sosial turizmə hüquqi anlayış verilməsinin əhəmiyyəti, sosial turizmin əsas elementləri, bu istiqamətdə beynəlxalq təcrübə təhlil edilmişdir.

***Açar sözlər:*** *Qloballaşma, turizm hüququ, sosial turizm, hüquqi tənzimləmə, sosial inteqrasiya*

**Parvin Mammadova**
Baku State University
Master student
https://orcid.org/0009-0003-0487-4987
parvinmamedova@icloud.com

# The Concept of Social Tourism

### Abstract

Globalization, as it affects all legal relations, is distinguished by its strong impact on tourism legal relations. In particular, the greater accessibility of means of transport for traveling and the multitude of choices have increased the importance of tourism legal relations. In general, before giving an understanding of social tourism in this section, it is very important to determine the scope of tourism. Determining the main characteristics of social tourism and distinguishing it from other types of tourism is very important from a legal perspective. In this regard, it would be appropriate to determine the effects of social tourism on society and social relations, and to identify the results from a legal, social and economic perspective. The contribution of social tourism initiatives to social integration is great, this concept is also distinguished by its essential importance in terms of ensuring basic human rights and freedoms and ensuring economic development. The article analyzes the importance of giving a legal understanding to social tourism, the main elements of social tourism, and international experience in this direction.

***Keywords:*** *Globalization, tourism law, social tourism, legal regulation, social integration*

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Hüquq ədəbiyyatında qeyd edilir ki, turizm termininə anlayış verilməsi olduqca mürəkkəb və kompleks məsələlərdən biridir. Çünki bu hissədə bir sıra xüsusi əhəmiyəti ilə seçilən məsələlərin aydınlaşdırılması zərurəti çıxır. Belə ki, turizm yaşayış yerindən məqsədli şəkildə uzaqlaşma kimi nəzəri bir anlayış verilir. Sonra bu anlayış tənqiqi yanaşma sərgilənərək hüquqi tənzimləmə üçün belə uzaqlaşmanın məsafəsi, bu aktın icra edildiyi müddət, konkret məqsədlərin spesifikliyi kontekstində nəzərədən keçirilir.[3] Qeyd olunanlardan da göründüyü kimi turizm olduqca mürəkkəb xarakterə malik bir fenomen kimi özünü biruzə verir. Burada meydana çıxan münasibətlərin tənzimlənməsi bir sıra spesifik məsələlərlə bağlı olur. Odur ki, qeyd olunanların nəzərə alınaraq turizmə hüquqi anlayış verilməsi məqsədəmüvafiq olardı.

**Tədqiqat**

Azərbaycan Respublikasında turizm sahəsində meydana çıxan ictimai münasibətləri tənzimləyən əsas normativ hüquqi akt olan "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda turizm fiziki şəxsin həyata keçirdiyi, konkret məqsədlərlə və hər hansı ödənişli əsaslarla fəaliyyətin həyata keçirilmədiyi yaşayış ölkəsi və ya yerinin müvəqqəti olaraq tərk edilməsi ilə bağlı fəaliyyət kimi müəyyən olunur. Qanunda məqsədlər sadalansa da, məhdudlaşdırılmamışdır. İstirahət kimi, reabilitasiya və tibbi məqsədlər, habelə mədəni məqsədlər xüsusi göstərilsə də digər məqsədlər adında ümumi kateqoriya da müəyyən olunmuşdur (Azərbaycan Respublikasının Milli Məclisi. (n.d.). Qeyd olunan Qanunda məhz ümumi şəkildə digər məqsədlərin müəyyən olunması ictimai münasibətlərin tənzimlənməsində və normativ hüquqi aktlara dəyişiklik edilməsinin uzun müddət tələb olunması istiqamətindən nəzərə alındıqda müsbət hal hesab oluna bilər. Lakin bu bəzən müvafiq hüquq normasından sui-istifadə hallarının meydana gəlməsinə də səbəb ola bilər (Commission des Communautés Européennes, 1994). Qeyd olunmalıdır ki, normativ hüquqi aktda fiziki şəxsin yaşadığı yeri və ya ölkəni tərk etməsi müddətində ödənişli fəaliyyətlə məşğul olmaması əsas şərt kimi təsbit olunmuşdur. Bu isə müasir dövrdə həyata keçirilən turizm fəaliyyətinin əsas xarakterik xüsusiyyəti ilə üst-üstə düşməyə bilir. Doğrudur əvvəllər ödənişli fəaliyyətlə məşğul olma aidiyyəti olaraq mülki və əmək hüquq normaları ilə tənzimlənir və məhdudlaşırdı. Lakin indi sadəcə səyahət barədə informasiyaları sosial şəbəkələrdə paylaşmaqla da gəlir əldə etmək mümkündür. O zaman belə bir sual ortaya çıxır ki, əsas fəaliyyəti turizm haqqında məzmun hazırlamaq olan sosial şəbək istifadəçisi səyahət müddətində yaratdığı və paylaşdığı məzmundan gəlir əldə edirsə, bu onun fəaliyyətinin turizm kimi qiymətləndirilməsinə mane olurmu?

Hazırda əhalinin aztəminatlı təbəqələrinin turizmdə iştirakından irəli gələn bütün konsepsiyalar və hadisələr dəqiq müəyyən edilmiş sosial tədbirlər vasitəsilə mümkün olmuşdur (Minnaert, Diekmann, McCabe, 2012).

Hüquq ədəbiyyatında sosial turizm subsidiyalaşdırılmış turizm olaraq təqdim edilir və qeyd olunur ki, xüsusi sosial statusa malik şəxslərin birləşdiyi bir qrup şəxslərin turizm imkanları ilə təmin edilməsi, sosial ehtiyaclarının təmini üçün müxtəlif mənbələrdən iqtisadi gəlirlilik səviyyəsi az şəxslərə ayrılan vəsait hesabına həyata keçirilən turizm başa düşülür (Durovich, Kabushkin, Sergeyeva, 2003). Qeyd olunan anlayış sosial turizmin hüquqi anlayışının təsbit olması baxımından olduqca vacibdir. Çünki bir sıra əsas elementlərini müəyyən edir. Həmçinin sosial qrupların anlayışda təsbit edilməsi sosial turizmin tənzimlənməsi prosesində öz müsbət təsirini göstərə bilər.

Avropa Komissiyası sosial turizmə ictimai birliklər, assosiasiya və s. təşkilatlar tərəfindən əhalinin az təminatlı qrupları üçün yaratdıqları turizm imkanları kimi anlayış vermişdir (Azərbaycan Respublikasının Milli Məclisi, n.d.). Qeyd olunan nalyış sosial turizmi tam əhatə etməsə də onun barəsində ilkin təsəvvürlərin formalaşmasına imkan verir. Bu istiqamətdən sosial elmlərin əsas xüsusiyyətlərindən biri kimi qəbul edilən cəmiyyətdə ictimai münasibətlərin sürətlə dəyişməsi ilə ayaqlaşmalı olmasıdır. Ona görə də, 1990-cı illərin ortalarında qəbul edilmiş bu anlayış ümumilikdə normativ bazanın formalaşması baxımından əhəmiyyət kəsb etsə də, hazırkı dövrdə formalaşan ictimai münasibətlərə uyğun deyildir.

Ədəbiyyatda qeyd edilir ki, sosial turizmə 4 istiqamətdə müxtəlif anlayışlar vermək olar. Əvvəla o maddi imkanı zəif olan və ya hər hansı istiqamətdən məhrumiyyətlərə malik olan şəxslər üçün turizmi təşviq edən bir kateqoriyadır (Minnaert, Maitland, Miller, pp. 404-405) Qeyd edilənlər sosial turizm haqqında daha geniş təsəvvürün yaranmasına imkan verir. Burada müxtəlif məqamlar xüsusilə fərqləndirilir. Bunların dəqiqliklə təhlili sosial turizmin daha rahat dərkinə imkan verərdi.

Avropa İqtisadi və Sosial Komitəsinin sosial turizm haqqında olan rəsmi nəşrində sosial turizm haqqında olan nəşrində sosial turizm geniş şəkildə təhlil edilir. Həmin nəşrdə qeyd edilir ki, sosial turizm haqqında vahid anlayışın müəyyən edilməsinə rast gəlinmir. Bununla yanaşı bu turizm növüyə hamıya əlçatan olması ilə seçilir. Bu mənbədə bir turizmin sosial turizm kimi qəbul edilməsi üçün müəyyən şərtlərin mövcudluğu irəli sürülür. Bu əvvəla müxtəlif səbəblərdən turizmə əlçatanlığın olmaması şərtidir. İkincisi bu cür baryerlər və məhdudiyyətlərlə mübarizə aparılmasına dair fəaliyyətdir. Üçüncüsü belə fəaliyyətin müəyyən qrup insan üçün turizmə əlçatanlığın təmin edilməsi nəticəsinin olmasıdır (European Economic and Social Committee, 2006). Göründüyü kimi sosial turizm müəyyən elementləri ilə seçilən bir konsepsiyadır. Əvvəla burada turizmə əlaçatanlığa imkan verməyən və ya bu imkanları uzaqlaşdıran real maneələrin olması zərurəti var. Bu kimi maneələrə şəxslərin fiziki və əqli sağlamlıq vəziyyətlərinin məhdudluğundan tutmuş, yaş, maddi və sosial rifahın aşağı olması, coğrafi şəraitin buna imkan verməməsi kimi səbəblər göstərilə bilər. Burada ikinci əsas fəaliyyət isə belə maneələrlə mübarizəyə dair fəaliyyətdir ki, bir çox hallarda dövlət təşkilatları, ictimai birliklər, əmək və ya həmkarlar ittifaqları, habelə bir qrup xüsusi məqsədlə bir araya gəlmiş insan qrupları tərəfindən həyata keçirilir. Üçüncüsü isə fəaliyyətin məqsədinin birbaşa bütün qrupları turizm imkanları ilə təmin etməkdir ki, bu da özlüyündə çox vacib əhəmiyyətli elementlərdən biri kimi çıxış edir.

Hüquq ədəbiyyatında qeyd olunur ki, mövcud maddi imkanı aşağı və ya olduğu vəziyyəti turizmdə iştirakının qarşısını alan qrupların turizmdə iştirakı ilə əlaqədar meydana çıxan məsəslələr sosial turizmə daxildir (Hunzicker, 1951). Hər bir halda burada ən əhəmiyyətli məsələ kimi qrupların müəyyənləşdirilməsi məsələsi özünü göstərir.

Yalnız gəlir məqsədi daşıyan və ya istehlakçı tələbi ilə idarə olunan geniş yayılmış turizmin əksinə olaraq, sosial turizm bərabərlik, inklüzivlik və rifah kimi sosial faydaları hədəfləyir. Təcrübə göstərir ki, sosial turizm təşəbbüsləri adətən səyahətləri əlverişli, əlçatan və əhatəli etməyə yönəlir. Burada aztəminatlı ailələr, imkansız ailələrdən olan uşaqlar, əlillər, qocalar, gənclər, tək valideynli ailələr və ya səyahət etməkdə maneələrlə üzləşən digər qruplar kimi xüsusi subyektlər dairələri benefisiar kimi çıxış edərək turizm imkanlarından yararlana bilirlər (Durovich, Kabushkin, Sergeyeva, 2003).

## Nəticə

Sosial turizmin müasir tərifləri isə yalnız aztəminatlılıq kimi iqtisadi çərçivələrdən kənara çıxaraq digər məhrumiyyətlərin də aradan qadldırılması ilə hamı üçün bərabər turizm imkanlarını ehtiva edən konsepsiyanı dəstəkləyir. Ədəbiyyatda qeyd olunur ki, sosial turizm istənilən digər formada və ya üsulda cəmiyyətdən müəyyən mənada kənarlaşmış şəxslərin dairəsinin turizmə təşviq edilməsi ilə əlaqəli meydana çıxan hüquq münasibətlərini özündə cəmləşdirir (Minnaert, Diekmann, McCabe, 2012, p. 29) Bu göstərilən yanaşma belə müasir dövrdə sosial turizmin öz çərçivələrini genişləndirdiyinin deməyə imkan verir. Bu cür yanaşma sosial turizmin mahiyyətini dərinləşdirir. Qeyd edilməsini zəruri hesab edirik ki, məhz bu cür yanaşılmanın inkişaf etdirilməsi və tətbiqi məhz insan hüquqları və turizm hüququ kontekstində əsas hüquq və azadlıqların təmin edilməsi baxımından olduqca vacib əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Milli Məclisi. (n.d.). *Turizm haqqında Azərbaycan Respublikasının Qanunu*. https://e-qanun.az/framework/2866
2. Commission des Communautés Européennes. (1994). *Les différentes notions du tourisme social: L'évolution de l'offre et de la demande* (Vol. XXIII). Luxembourg.
3. Pearson Higher Ed. (n.d.). *Defining and analysing tourism and its impacts*. https://www.pearsonhighered.com/assets/samplechapter/0/2/7/3/0273755145.pdf (Əldəolunma tarixi: 15.01.2025)
4. Durovich, A. P., Kabushkin, N. I., Sergeyeva, T. M., və b. (2003). *Organizatsiya turizma: Uchebnoye posobiye*. Minsk.
5. Hunziker, W. (1951). *Social tourism: Its nature and problems*. Berne: International Tourists Alliance, Scientific Commission.
6. Minnaert, L., Diekmann, A., & McCabe, S. (2012). Defining social tourism and its historical context. In L. Minnaert, A. Diekmann, & S. McCabe (Eds.), *Social tourism in Europe: Theory and practice* (pp. 18–34). Channel View Publications.
7. Minnaert, L., Maitland, R., & Miller, G. (2011). What is social tourism? *Current Issues in Tourism, 14*(5), 403–415. https://doi.org/10.1080/13683500.2011.555520
8. European Economic and Social Committee. (2006). *Opinion of the European Economic and Social Committee on social tourism in Europe* (2006/C 318/12). https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=CELEX%3A52006IE1155 (Əldəolunma tarixi: 11.01.2025)

Daxil oldu: 09.01.2025
Qəbul edildi: 10.04.2025